# "Nəsimi" operasının ilk dəfə süni zəka ilə hazırlanmış səhnə tərtibatı

**Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında "Nəsimi" operası nümayiş olunub.**



İmadəddin Nəsimi rolunu Əməkdar artist Ramil Qasımov ifa edib.

Opera ölkəmizdə ilk dəfə süni zəka texnologiyalarından istifadə edilərək hazırlanıb. Operanın ideya və musiqi müəllifi Xalq artisti Siyavuş Kərimi bu əsərdə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin dramatik və fəlsəfi taleyini müasir musiqi dili ilə səhnəyə gətirib. Əsər insanın mənəvi azadlığı, həqiqət axtarışı, inanc və qurbanlıq kimi əbədi mövzulara toxunaraq, Nəsimi irsinin ideya-fəlsəfi dərinliyini operanın emosional təsir gücü ilə birləşdirir.

Librettonun müəllifi akademik Rafael Hüseynov tarixi faktlarla bədii təxəyyülü ustalıqla sintez edərək səhnə üçün dramatik və təsirli mətn yaradıb.

Tamaşanın dirijoru və musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyevdir. Xormeyster Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu rejissor Əməkdar artist İnarə Babayeva, quruluşçu xoreoqraf Əməkdar artist Yuriy Lobaçev, quruluşçu rəssam Nərgiz Quliyevadır. Operada rolları Xalq artistləri Nurəddin Mehdixanlı, Teyyub Aslanov, Əməkdar artistlər Anton Ferştandt, İlkin Əhmədov, Tural Ağasıyev, Arzu Əliyeva, ifaçılar Mahir Tağızadə, Orxan Cəlilov, Xəyal Hüseynov və digərləri canlandırıblar. Tamaşada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri, xor kollektivi və balet truppası iştirak edib.

"Nəsimi" operası klassik Şərq fəlsəfəsini simfonik düşüncə və milli musiqi elementləri ilə bir araya gətirərək, monumental səhnə kompozisiyası yaradıb. Bəstəkarın zəngin orkestr boyaları, xor səhnələrinin dramatik kulminasiyaları və solist partiyalarının emosional yükü tamaşaçını XIV əsrin mürəkkəb ictimai-mənəvi atmosferinə aparır.

Azərbaycan.- 2026.- 5 mart (№42).- S.11.